UOT 343.9

# PSİXİ ANOMALİYALI CİNAYƏTKARIN ŞƏXSİYYƏTİ – HÜQUQİ VƏ TİBBİ MEYARLARI

**K.N.SƏLİMOV*, G.Ç.GƏRAYBƏYLİ**,**
**A.R.RƏSULOV***, T.Z.RZAYEV*****
***Bakı Dövlət Universiteti****
***Azərbaycan Tibb Universiteti*****
***Azərbaycan Respublikası Səhiyyə Nazirliyi******
***1 nömrəli Respublika Psixiatriya Xəstəxanası***
***dr.rzayev@hotmail.com***

*Hazırki məqalədə son 10 ildə Azərbaycanda anlaqlılığı istisna etməyən vəziyyətdə, yəni məhdud anlaqlı vəziyyətdə, cinayət törətmiş şəxslərin şəxsiyyəti, törətdikləri əməllər və onlarda daha çox rast gəlinən psixi pozuntular araşdırılmışdır. Müəyyən olunmuşdur ki, cəmiyyətdə psixi anomaliyalı şəxslərin cinayət əməlinə təhrik olunması, onlardan qrup üzvləri kimi "istifadə olunma" halları az deyildir (47,8%). Bundan başqa həmin şəxslərin törətdikləri sosial təhlükəli əməllərin xarakterini tədqiq etdikdə müəyyən olunmuşdur ki, cinayətin törədilməsində əsas motivlərdən biri də ətrafdakılar tərəfindən kiçik bir təhqir və ya iradlar olmuşdur. Bunlar isə ümumilikdə psixi pozuntulu şəxslərin digərləri tərəfindən hər hansısa bir sosial təhlükəli əmələ istiqamətləndirmə kimi qiymətləndirilə bilər. Həmçinin cəmiyyətdə cinayətə meylli qrupların psixi anomaliyalı şəxslərdən sosial təhlükəli əməllərin törədilməsində "istifadə olunma" halları, həmin insanların gələcəkdə cinayətə meylli şəxsiyyət kimi formalaşmasına təsir göstərir.*

**Açar sözlər:** məhdud anlaqlılıq, psixi anomaliyalar, cinayətkarın şəxsiyyəti

Hüquq mühafizə orqanları hələ ki, psixi patologiyalı şəxslərlə işlərin həyata keçirilməsi, onlar tərəfindən cinayətlərin törədilməsinin qarşısının alınması, həmin cinayətlərin istintaqı və məhkəmə baxışı, həmçinin bu cür patologiyalı məhkum olunmuş şəxslərin islahı üzrə zəruri tövsiyyələrə malik deyillər [2, 3, 4]. Bununla bağlı psixi anomaliyalara malik olan cinayətkarın şəxsiyyətinin öyrənilməsinə ehtiyac yaranır. Bundan əlavə, Azərbaycan Respublikası “İnsan hüquqları xartiyası”, “İnsan hüquqları və əsas azadlıqlarının müdafiəsi haqqında Avropa konvensiyası” kimi beynəlxalq paktlara qoşulmuşdur, onların müddəaları Azərbaycan Respublikasının Konstitusiyasına (maddə151) əsasən prioritet hesab edilir. Həmçinin bu tədqiqat üçün “İşgəncənin və qeyri-insani

və ya ləyaqəti alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında Avropa Konvensiyası" mühüm əhəmiyyət kəsb edir.

Məhbusların sosial və psixoloji adaptasiyası probleminə həsr olunan, elmi ədəbiyyatın analizi göstərdi ki, cinayətkarlığın sosial hal kimi araşdırılması, səbəbləri və onunla mübarizə sahəsində, həmçinin sosioloji və kriminaloji sahələrdə kifayət qədər təcrübə toplanılmışdır. E.Dyurkgeym, P.Sorokin, R.Merton, T.Parsons, Z.Freyd və başqalarının, cinayətkarlığın sosiologiyası sahəsindəki araşdırmalarını klassik hesab etmək olar [1, 6, 9].

Psixi anomaliyalı cinayətkarın şəxsiyyət problemini cinayət mexanizmində tədqiq edərkən, biz onu cinayətkarın şəxsiyyətinin ümumi xarakteristikasından ayırmırıq. Cinayətkarın şəxsiyyətinin tədqiq edilməsi problemi inzibati xarakter daşıyır. O, cinayət-hüquqi elmləri, kriminalistika, kriminologiya və s. elmlərin çərçivəsində öyrənilir.

Anlaqlılığın məhdud olması problemində aktual yeri Y.M. Antonyan, Q.V. Nazarenko, İ.A. Kudryavtsev, S. Şişkov tərəfindən aparılan tədqiqatlar tutur. Psixiatr və psixoloqlar arasında bu problem üzrə ən məşhur işlərin müəllifləri sırasında P.B. Qannuşkini, Q.V. Morozovu, B.V. Şostakoviçi, V.N. Kudryavtsevi və digərlərini göstərmək olar [10]

Psixi anomaliyalara malik olan cinayətkarın şəxsiyyətinin kriminoloji xarakteristikası üçün törədilmiş cinayətlə şəxsiyyət arasında qanunauyğun əlaqələrə işarə edən, çoxsahəli əlamətlərdə - qanunsuz, cəmiyyət üçün təhlükə törədən hərəkətin nəticələrində təzahür edən elementlərin müəyyən edilməsi zəruridir. Bu mənada, psixi anomaliyalara malik olan cinayətkarın şəxsiyyətini yalnız əlamət əmələ gətirən obyekt – törədilmiş cinayət haqqında informasiya mənbəyi kimi deyil, həmçinin, onun istintaqı və açılması üçün mühüm vasitə kimi öyrənmək lazımdır.

Cinayətkarın şəxsiyyəti – şəxsiyyətin mahiyyətini, onu xarakterizə edən əlamətlərin, xüsusiyyətlərin, əlaqələrin və münasibətlərin mürəkkəb kompleksini, onun inkişaf prosesində təzahür edən və sosial və fərdi həyat şəraitindən götürülən, bu və ya digər dərəcədə cinayətin törədilməsinə və gizlədilməsinə təsir göstərən əxlaqi-psixoloji və mənəvi durumunu ifadə edən anlayışdır.

Əksər hallarda narkotik vasitələrdən istifadə edən cinayətkarlar psixopatik xüsusiyyətlərə malik olurlar [5, 8]. Bu xüsusiyyətlər daha çox psixi anomaliyalara malik olan cinayətkarların şəxsiyyətləri üçün səciyyəvidir.

Hüquqi tənzimləmənin çətinlikləri anlaqlılıq, anlaqsızlıq və məhdud anlaqlılıq institutlarının kompleks, elmi-nəzəri araşdırmalarının (Cinayət-hüququ, Kriminologiya, Psixologiya, Psixiatriya, Fəlsəfə və s. aspektlərində) kifayət qədər olmamasından irəli gəlir. İndiyə qədər anlaqlılıq-anlaqsızlıq və bu cinayət-hüquq anlayışlarının yeni inzibati qanunvericiliklə əlaqələndirilməsi elmdə araşdırılmamışdır [7].

Anlaqlılığı istisna etməyən psixi pozuntu halında cinayət törədən şəxslərlə münasibətdə, Azərbaycan Respublikasnın məhkəmə-istintaq təcrübəsinin

tədqiqi və ümumiləşdirilməsinin nəticələrinə görə, tərəfimizdən aşağıdakılar müəyyən edilmişdir.

Məlumdur ki, təbabətdə anlaqlılığın məhdud olmasının meyarı tibbi meyardır, yəni anlaqlılığı istisna etməyən psixi pozuntu, həmçinin psixi vəziyyət cinayətin törədilməsi anına cinayətkar davranışın motivasiyasına təsir göstərir və istintaq zamanı şəxslərin davranışını müəyyən edir.

Məqalədə istifadə olunmuş materiallar əsasən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin 1 nömrəli Respublika Psixiatriya Xəstəxanasının məcburi müalicə şöbələrində müalicədə olan xəstələr və həmin xəstəxananın arxiv məlumatlarından və AR SN Məhkəmə Psixiatrik Ekspertiza Mərkəzinin arxiv materiallarından götürülmüşdür.

Tədqiqat zamanı əsasən anamnezin analizi, kliniki-psixopatoloji və məhkəmə-psixiatrik qiymətləndirilmə, sosial-kriminoloji analiz, metodlarından istifadə olunub.

Belə ki, qeyd olunan 10 il ərzində AR SN 1 saylı Respublika Psixiatriya Xəstəxanasında AR CM-nin 22-ci maddəsi ilə məcburi müalicəyə göndərilmiş şəxslərin tibbi və kriminal anamnezinin tədqiqi göstərmişdir ki, həmin şəxslərin böyük əksəriyyəti 25-34 yaş qrupu arasında, orta təhsilli, ailəli, işləməyən şəxslər olmuşdur. Eyni zamanda irsiyyəti 30,4% hallarda psixi xəstəliklərlə ağırlaşmış, psixonevroloji dispanserdə qeydiyyatda olmaqla, 65,2% halda əvvəllər psixi pozuntudan əziyyət çəkən və 30,4% halda anamnezdə keçirilmiş kəllə beyin travmasının olması müəyyən olunmuşdur. Spirtli içki qəbul edənlər, narkotik maddə qəbul edənlərdən daha çoxluq təşkil etmişdir. Bu da öz növbəsində cinayət hadisəsinin məhdud anlaqlı vəziyyətdə törədilməsində tibbi anamnestik göstəricilərin, eyni zamanda zərərli vərdişlərin rolunun az olmadığının göstəricisidir.

Bu qrup şəxslərin kriminal anamnestik göstəricilərinə görə isə 60,9%-i ilk dəfə cinayət məhsuliyyətinə cəlb olunmuş və 52,2% tək halda, qalan 47,8% isə qrup halında cinayət əməli törətmiş şəxslər olmuşdur. Buradan da aydın olur ki, cəmiyyətdə psixi anomaliyalı şəxslərdən hər hansısa bir cinayət əməlinin həyata keçirilməsində, onlardan "istifadə olunma" halları da az deyildir.

İbtidai istintaq prosesində aparılan dindirmələr zamanı 12 şəxs (52,2%) təqsirləndirilən şəxs əməllərindən peşman olduqlarını bildirmiş, 11 şəxs (47,8%) isə əksinə peşmançılıq hissini keçirmədiyini bildirmişdir, lakin onlar da həmin əməli törətdiklərini etiraf etmişlər. 5 şəxs (21,7%) hətta bunu zəruri addım kimi qiymətləndirmişlər; 8 şəxs (34,7%) öz günahını etiraf etməmiş, 4 şəxs (17,4%) günahını qismən etiraf etmiş, 11 şəxs (47,8)% isə cinayət əməlinin törədilməsini tam olaraq etiraf etmişlər. Cinayət işlərinin mütləq əksəriyyətində 20 təqsirləndirilən şəxsin (87%) psixi pozğunluğu barədə məlumatlar ibitdai istintaq zamanı müəyyən edilmişdir, cinayət işlərinin 3 şəxsdə (13%) psixi kənarlaşmalar haqqında məlumatlar cinayət işlərinə məhkəmə baxışı zamanı müəyyən edilmişdir. Bununla bağlı, ibtidai istintaqın ilkin mərhələsində

təqsirlərindirilən şəxsin psixi natamamlığının müəyyən edilməsi problemi əhəmiyyət kəsb edir.

Həmin şəxslərin törətdikləri əməllərin xarakterinə gəldikdə isə əsasən ölüm və ya ölümə cəhd, sağlamlığa zərər vurma, xuliqanlıq, oğurluq və narkotik vasitələrin istifadəsi olmuşdur. Bu hal onu göstərir ki, bir qayda olaraq, həmin şəxslərin psixi durumu kifayət qədər dayanıqsızdır. Yəni ətrafdakılar tərəfindən kiçik bir təhqir və ya irad, eyni zamanda onların psixi pozuntulu şəxs olduqlarını nəzərə alaraq digərləri tərəfindən hər hansısa bir sosial təhlükəli əmələ istiqamətləndirmə - psixi anomaliyalara malik şəxslərdə qeyri-adekvat aqressiya reaksiyası yaradır. Qeyd olunan faktlar isə mahiyyət etibarı ilə onların gələcəkdə şəxsiyyətə və cəmiyyətə qarşı cinayət əməli törətməsinə səbəb ola bilir.

Quldurluq kimi cinayət işlərində psixi anomaliyalara malik olan məhkum olunmuş şəxslərin bütün hallarda bu cinayətlər başqa şıxslərlə əlbir olmaqla törədilmişdir. Tərəfimizdən tədqiq edilən məhkum olunmuş şəxslərin kateqoriyalarının cinayət qrupundakı rolu, mahiyyət etibarı ilə cinayətlərin və quldurluq əməllərinin təşkilatçıları tərəfindən müəyyən edilən rol funksiyalarının icrasına gətirib çıxarırdı.

Şəxsiyyətə qarşı törədilən cinayətlər barədə cinayət işləri ilə tanışlıq göstərdi ki, təqsirləndirilən şəxslər əvvəlcədən cinayətin törədilməsinə hazırlıq işləri görməmişlər. Bütün hallarda cinayət əməli münaqişənin – davanın, savaşmanın, zərərçəkmiş şəxslər tərəfindən təhqirin baş verməsi anında törədilmişdir. Psixi anomaliyalara malik olan şəxslərin davranış xarakterinin mahiyyət etibarı ilə onların psixi xəstəliyinin diaqnozu ilə izah edilməsi faktı diqqət cəlb edir. Bu cür davranış əsasən üzvü mənşəli və digər qrup şəxsiyyət pozuntuları (psixopatiyalar) üçün səciyyəvidir.

Tədqiq edilən məhkum olunmuş şəxslərdə bu və ya digər psixi pozuntuları aşkar edən məhkəmə-psixiatrik ekspertizalarının nəticələri üzrə məlumatlar aşağıdakı kimi olmuşdur (Cədvəl 1).

Cədvəl 1

**XBT-10 üzrə diaqnozlar cədvəli**

| | | |
|---|---|---|
| **F0** | Üzvi psixi pozuntular | **39,2%** |
| **F2** | Şizofreniya, şizotipik və sayıqlama pozuntuları | **8,7%** |
| **F3** | Əhval-ruhiyyə pozuntuları (Affektiv pozuntular) | **4,3%** |
| **F6** | Yetkin yaşlarda təsadüf olunan şəxsiyyət və davranış pozuntuları | **43,5%** |
| **F7** | Ağıl zəifliyi (kəmağıllıq) | **4,3%** |

*XBT-10* Xəstəliklərin Beynəlxalq Təsnifatının 10-cu baxışı*

Cədvəldən də göründüyü kimi, məhdud anlaqlı şəxslər arasında daha çox rast gəlinən müxtəlif tipli şəxsiyyət pozuntuları və üzvü mənşəli (baş beynin travma və ya digər xəstəlikləri nəticəsində yaranmış) pozuntular təşkil edir.

Beləliklə, aparılan tədqiqatlar əsasında müəyyən olunmuşdur ki, anlaqlılığı istisna etməyən vəziyyətdə cinayət törətmiş şəxslərdə rast gəlinən yuxarı-

da göstərilən psixi pozuntular təyin olunmuş məcburi müalicə tədbirlərindən sonra psixi vəziyyətlərindən asılı olmayaraq (istər məcburi ambulatoriya müşahidəsinə ehtiyac olduqda, istərsə də ehtiyac olmadıqda) 81,7% halda CÇM-nə göndərilirmişdir.

Bununla yanaşı, qalan cəmi 18,3% şəxs məhkəmə qərarı əsasında yaşayış yeri üzrə məcburi ambulatoriya müşahidəsi və psixiatr müalicəsinə göndərilmişdir. Bunun da səbəbi həmin şəxslərin törətdikləri cinayət əməlinə görə məhkəmə tərəfindən qısa müddətə təyin olunmuş cəza müddətinin bitməsi olmuşdur. Beləliklə də hər bir halda cəzaçəkmə müəssisələrində məhkum edilmiş şəxslər arasında ambulator qaydada psixiatrik yardımın təşkil olunması məqsədəmüvafiqdir.

**Nəticələr:** Beləliklə, aparılan analizlər aşağıda göstərilən nəticələrə gəlməyə əsas verir.

1. Məhdud analaqlı vəziyyətdə cinayət törətmiş psixi anomaliyalı şəxslər anlaqsız vəziyyətdə cinayət törətmiş psixi pozuntusu olan şəxslərdən fərqli olaraq törətdiyi əməlin mahiyyətini dərk edərək, öz günahını qismən və ya tam etiraf edir, tutduğu əməldən peşmançılıq hissi keçirdiyini bildirirlər.
2. Eyni zamanda qeyd etmək lazımdır ki, anlaqlılığı istisna etməyən vəziyyətdə (məhdud anlaqlı) cinayət törətmiş şəxslərdə rast gəlinən psixi pozuntular öz nozoloji göstrəricilərinə görə daha çox müşahidə olunan şəxsiyyət pozuntularıdır ki, bu da öz növbəsində digər xroniki ruhi xəstəliklərlə bərabərləşdirilməyən və uzun müddətli müalicə tələb etməyən psixi pozuntulardır.
3. Cəmiyyətdə cinayətə meylli qrupların psixi anomaliyalı şəxslərdən sosial təhlükəli əməllərin törədilməsində "istifadə olunma" halları, həmin insanların gələcəkdə cinayətə meylli şəxsiyyət kimi formalaşmasına təsir göstərir.

## ƏDƏBİYYAT


1. Аргунова Ю. Н. Вопросы принудительного лечения ограниченно вменяемых лиц // Независимый психиатрический журнал, 1999, №4, с. 40–43.
2. Зайцева О.В. Рецидивная преступность лиц с психическими отклонениями: Дис. ... канд. юрид. наук: 12.00.08. М.: РГБ, 2003, 253 с.
3. Колесниченко А.Н. Научные и правовые основы расследования отдельных видов преступлений: Автореф. дисс. д-ра юрид. наук. Харьков, 1967, 27 с.
4. Корецкий Д.А., Тулегенов В.В. Криминальная субкультура и ее криминологическое значение. СПб.: 2006, 243 с.
5. Рубинштейн С.Л. Бытие и сознание. М.: 1957, 327 с..
6. Семенцова И.А. Уголовная ответственность лиц с психическим расстройством, не исключающим вменяемости: автореф. дис. ... канд. юрид. наук / И.А. Семенцова. М.: 1999, 14 с.
7. Судебная медицина. Лекции заслуженного профессора С.А.Легонина. М.: 1894, с. 15.
8. Философская энциклопедия. Т.3, М.: Советская энциклопедия. 1964, 584 с.
9. Шибутани Т. Социальная психология. РнД.: 1998, с.483-502
10. Шишков С. О принудительном лечении осуждённых с психическими аномалиями // Российская юстиция, 1998, № 4, с. 49–50.

## ЛИЧНОСТЬ ПРЕСТУПНИКА С ПСИХИЧЕСКОЙ АНОМАЛИЕЙ – ПРАВОВЫЕ И МЕДИЦИНСКИЕ КРИТЕРИИ

**К.Н.САЛИМОВ, Г.Ч.ГЕРАЙБЕЙЛИ, А.Р.РАСУЛОВ, Т.З.РЗАЕВ**

### РЕЗЮМЕ

В настоящей статье рассматриваются личности, деяния и наиболее часто встречаемые психические нарушения лиц, совершивших преступления в состояниях, не исключающих вменяемость, т.е. в состоянии ограниченной вменяемости в течение последних 10 лет в Азербайджане. Было установлено, что в обществе немало случаев, когда лица с психическими аномалиями подстрекаются на преступное деяние, «пользуют» ими как членов группы (47,8%). Кроме того, при расследовании характера совершенных этими лицами социально опасных деяний было установлено, что одним из основных мотивов совершенных преступлений были незначительные оскорбления или замечания окружающих, что в целом могут быть оценены как направление лиц психическими отклонениями другими лицами на какое-либо социально опасное деяние, в том числе случаи «пользования» группами с преступной наклонностью лиц с психическими аномалиями в совершении социально опасных деяний влияет также и на формирование в будущем этих людей как личностей с преступными наклонностями.

**Ключевые слова**: ограниченная вменяемость, психические аномалии, личность преступника

## IDENTICAL – LEGAL AND MEDICAL CRITERIA OF OFFENDERS WITH PSYCHOLOGICAL ANOMALIES

**K.N.SALIMOV, G.Ch.GARAYBAYLI, A.R.RASULOV, T.Z.RZAYEV**

### SUMMARY

The paper studies the identity, acts and psychological disorders of persons having commited crimes under the states of limited responsibility within the last 10 years in Azerbaijan. It was determined that, instigation of persons with psychological anomalies to criminal action in the community and their “use” as members of group are not rare (47,8%). Moreover, the analysis of the character of socially risky actions procreated by those persons showed that, one of the main motives in procreation of crime was a slight insult or criticizm.

**Key words:** limited responsibility, psychological desorder, identity of offenders